

## ƏZİZ MUSA

# AZƏRBAYCAN

Yalanlara öyrənmişik deyəsən biz,
Dərd-qəmlərə çox dözübdü bu qəlbimiz.
Bəs nə zaman olacaqdır qələbəmiz?
Qurtarmayır bu böhtanlar, bu ağ yalan,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Nə zamandı göz dağıdı Araz bizə,
İnanmışıq hər deyilən şirin sözə.
Dayanmışıq düşmənlərlə biz üz-üzə,
Yurdumuza göz dikiblər hər bir zaman,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Qəlbimizdən yaraların getmir izi,
Belə getsə bağışlamaz Tanrı bizi.
Qəm üstündə kökləmişik nəğməmizi,
Çəkiləcək bu yollardan bir gün duman,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Şükür dedik biz gedənə, biz qalana,
Tanrı niyə qıydı yurdu parçalana.
Lənət olsun aralığa qan salana,
Dostu tanı, düşmənlərə vermə aman,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Hələ qan-yaş axıdırıq gözümüzdən,
Hələ qüssə çəkilməyib sözümüzdən.
Nigaranıq bu Vətəndən, özümüzdən,
Düşmən yenə üstümüzə gəlir hər an,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Bu dağlara əsrlərdən iz düşübdü,
Bu yerlərdə cəngavərlər görüşübdü.
Neyləyək ki, vaxt, zəmanə dəyişibdi,
Düşünmə ki, qələbəyə yoxdu güman,
Bir silkələn, özünə gəl, Azərbaycan!

At oynadır cıdırlarda hələ yağı,
Zalım fələk sinəmizə çəkir dağı.
Kafirlərə qalıb hələ cənnət bağı,
Vaxt ötüşür, oyan, oyan, qalx yuxudan,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Hanı sənin nərə çəkən igidlərin,
Niyə olub, qalanlardan yox xəbərin.
Ana Vətən dərdin ağır, yaran dərin,
Hər daşına, torpağına canım qurban,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Yad əlində de neyləsin bəs Borçalı,
Çox çətindi Göyçəmizin indi halı.
Sən həsrətin, ayrılığın bir timsalı,
Ah çəkməkdən tay bizlərdə qalmadı can,
Bir silkələn, özünə gəl, Azərbaycan!

Bu yurd, torpaq çox düşmənlər görüb burda,
Qoç igidlər qoymayıbdı eli darda.
Bu el-oba çox qalıbdı intizarda,
Hər oğlumuz, hər qızımız bir qəhrəman,
Bir silkələn, özünə gəl, Azərbaycan!

## ANA

Sənsiz bu dünyam bürüdü kədər,
İndi gündüzüm də zülmət gecədi.
Səni düşünürəm səhərə qədər,
Sənsizlik ən böyük bir işgəncədi.

Hələ qulağımda mehriban səsin,
Şükut qılınclayır ömrümü hər gün.
Qırıldı bir anda arzu, həvəsin,
Yaman darıxıram mən sənin üçün.

Sən idin Günəşim, sən idin Ayım,
Sənsiz tay ömrümün üzü gülməyir.
Yoxdur xoş anlarım, hayım, harayım,
Nələr çəkdiyimi kimsə bilməyir.

Neyləyim yazıya yoxdu bir pozu,
Ay ana, yoxluğun yandırır məni.
Apardın özünlə baharı, yazı,
Qaytara bilmirəm dünyaya səni.

Hər yana baxıram səni görürəm,
Gözümü yummuram, küsüb gedərsən.
Sənə laylalardan çələng hörürəm,
Bilirəm hayıma özün yetərsən.

## SƏNDƏN ÖZGƏ

Mənim səndən özgə kimim var axı,
Gəl çəkmə sinəmə sən hicran dağı.
Birlikdə dolaşaq bağçanı, bağı,
Qəlbimin şahısan, gözümün nuru.

Sənsiz bu dünyanın Günəşi sönər,
Qəlbimin, gözümün atəşi sönər.
Gözüm qan ağlayar, ürəyim dinər,
Qəlbimin şahısan, gözümün nuru.

Necə də gözəlsən, cənnət mələyi,
Hələ görməmişəm sən tək çiçəyi.
Sənsən ürəyimi arzu, istəyi,
Qəlbimin şahısan, gözümün nuru.

Bütün varlığımla bağlıyam sənə,
Vallah tamaşadı o üz, o sinə.
Şirin yuxumuzu yozma tərsinə,
Qəlbimin şahısan, gözümün nuru.

O qara xalına qurbandı canım,
Bal kimi şirinsən, a mehribanım.
Sənə qurban olum, nazlı ceyranım,
Qəlbimin şahısan, gözümün nuru.

## SƏNSƏN

Çiçəklər nazlanır şəfəq içində,
Baxıb gözəllikdən nurlanır gözüm.
Arılar səhv etmir heç vaxt seçimdə,
Bu güllər içində ballanır sözüm.

Nəğmə beşiyidi hər tərəf, hər yan,
Bürüyüb hər yanı quşların səsi.
Sevgidən, istəkdən əriyir bu can,
Ruhuma oxşayır sevgi nəğməsi.

Qonur güldən gülə xallı kəpənək,
Günəş sığallayır şehli gülləri.
Təzə bir sevgidir hər gül, hər çiçək
Nəğmə aşiqiyəm əzəldən bəri.

## DAHA

Zirvə arzularım buluda çatır,
Gözümə çən düşüb, ürəyimə xal.
Cənnət ümidlərim qan-yaşa batır,
Bu necə istəkdi, bu necə xəyal.

Yaman çox uzandı qaranlıq gecəm,
Dayanıb pusquda işıq boğanlar.
Çatmır köməyimə daha düşüncəm,
Hər gün dərinləşir bu yarrığanlar.

Yavan qismətimlə necə barışım,
Yolumu yalana çəkdi nağıllar.
Kürsü davasından səngimir başım,
Getdi, qayıtmadı nakam oğullar.

Vallah bu dünyanın min oyunu var,
Düşmür sümüyümə çalınan hava.
İndi hər bir sözüm, bir giley-güzar,
Qurtarmır hələ də bu qanlı dava.

Bu həsrət, ayrılıq belimi əyir,
Daha dərd atlıdı xatirə nimdaş.
İnadım hələ də qan-qan eyləyir,
Səbrimin saqqalı ağarıb qardaş.